AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№332/4** **12 iyul 2021-ci il**

Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə tərəfindən aparılmış keyfiyyətə nəzarət üzrə monitorinqlərin nəticələrinin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə tərəfindən təqdim edilmiş 2021-ci il 16 iyun tarixli 02 nömrəli Protokolu müzakirə edilərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin 2021-ci il 16 iyun tarixli 02 nömrəli Protokolu nəzərə alınsın (əlavə olunur).

2. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə (N.Yusifov) tərəfindən aparılmış monitorinqlərin nəticələrinə dair monitorinq subyektlərinə qoyulmuş qiymətlər aşağıdakı kimi təsdiq edilsin:

2.1. 2 auditor təşkilatı - “KPMG Audit Azərbaycan” MMC (Direktor: Murat Karakaş) və “BDO Azərbaycan” MMC (Direktor: Salayev Yunis Elxan oğlu) – 5 (keyfiyyətli);

2.2. 2 auditor təşkilatı - “PKF Audit Azərbaycan” MMC (Direktor: Hüseynzadə Ziya Hikmət oğlu), “F.N. Audit Servis” MMC (Direktor: Əliyev Fuad Eyyub oğlu) – 4 (qənaətbəxş);

2.3. 3 auditor təşkilatı – “İnter Audit” auditor təşkilatı (Direktor: Bağırov Əlimuxtar Balağa oğlu), “Baltik Kaspian Audit” MMC (Direktor: Əsədullayev Samir Sədulla oğlu), “Grow Audit and Consulting” MMC (Direktor: Abdurahmanov Orxan Əlisəfa oğlu) – 3 (qismən qənaətbəxş);

2.4. 2 auditor təşkilatı – “Fairness Consulting Group” MMC (Direktor: Məmmədov Eldəniz Xosrov oğlu), “İmdad Audit” MMC (Direktor: Süleyman İlham Süleyman oğlu) və 2 sərbəst auditor - Talıbov Tariyel Aslan oğlu (plandankənar) və Çələbiyev Eldəniz Nazim oğlu (plandankənar) - 2 (qeyri-qənaətbəxş).

3. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (N.Yusifov) tapşırılsın ki, bu qərarın 2.4-cü bəndində adları qeyd edilən auditor təşkilatları və sərbəst auditorlar 2 (Qeyri-qənaətbəxş) qiymət aldıqları üçün, onlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin plandankənar həyata keçirilməsi 2022-ci ilin plan-qrafikinə daxil edilsin.

4. “NAHİD AUDİT” MMC (plandankənar) (Direktor: Ələkbərov Elnur Əsəd oğlu), “Audit Servis” MMC (plandankənar) (Direktor: Abdullayev Oleq Əhməd oğlu) və sərbəst auditor Hacaliyev Elşad Nuriq oğlu tərəfindən Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin müfəttişlərinə monitorinqin aparılması üçün tələb olunan sənədlər təqdim edilmədiyinə görə onlara xəbərdarlıq elan edilsin və nəzərlərinə çatdırılsın ki, tələb olunan sənədləri iki ay müddətində təqdim etmədikləri təqdirdə həmin auditor təşkilatılarına və sərbəst auditora ölkədə auditor fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş icazələrin dayandırılması məsələsinə baxılacaqdır.

5. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (N.Yusifov) tapşırılsın ki, bu qərarın 4-cü bəndində adları qeyd edilən auditor təşkilatlarının və sərbəst auditorun plandankənar monitorinqinin aparılması üç aydan sonra təkrar həyata keçirilsin.

6. “Grant Thornton” MMC-nin Azərbaycan Respublikasındakı filialı (Direktor: Farouk Muhamed) tərəfindən 2020-ci ildə də Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin müfəttişlərinə monitorinqin aparılması üçün tələb olunan sənədlərin verilməsindən imtina edilməsi səbəbindən Auditorlar Palatasının Şurasının 2021-ci il 23 fevral tarixli 328/6 nömrəli Qərarının 7-ci bəndinə əsasən həmin auditor təşkilatının rəhbərinə töhmət elan edilməsinə baxmayaraq, təşkilat eyni əmələ təkrarən yol verdiyi üçün ona ölkədə auditor fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş 2020-ci il 13 fevral tarixli XT/013 nömrəli icazə dayandırılsın.

7. Auditin təşkili, hesabatlılıq və təhlil idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərarın 6-cı bəndindən irəli gələn məsələləri həll etsin.

8. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

Şuranın sədri **Vahid Novruzov**